# Azərbaycan diasporu dövlətin, xalqın yanındadır

Azərbaycan yaşayış məntəqələrinin atəşə tutulması beynəlxalq hüquq normalarına zidd olmaqla yanaşı, Ermənistan dövlətinin təcavüzkar xarakterini bir daha nümayiş etdirdi. BMT-nin Təhlükəsizlik Şurasının, Baş Assambleyasının və digər beynəlxalq təşkilatların Azərbaycanın işğal edilmiş 20 faiz ərazisinin, o cümlədən Dağlıq Qarabağ bölgəsinin dərhal və qeyd-şərtsiz azad olunması tələbi ilə bağlı müvafiq qətnamələr qəbul etməsinə baxmayaraq, Ermənistan təcavüzkar siyasətini davam etdirir. Soydaşlarımız, diaspora təşkilatlarımız Ermənistanın müxtəlif təxribatlara əl atmasına baxmayaraq, Azərbaycan dövlətinin hər zaman sülhün tərəfdarı olduğunu bəyan etmişlər. Ermənistanın tükənməyən təxribatları isə Azərbaycan ordusunu cavab tədbirləri görməyə vadar edir. Bir daha aydın oldu ki, dünya ölkələrində yaşayan hər bir azərbaycanlı torpaqlarımızın işğaldan azad olunması və xalqımıza qarşı törədilən istənilən təcavüzün qarşısının alınması naminə Azərbaycan hökümətinin və ordumuzun atdığı bütün addımları dəstəkləyir. Niderlandda, Avstraliyada, Kaliforniyada, Almaniyada və neçə-neçə dünya ölkələrində Azərbaycanın haqq səsini dünyaya çatdırmış oldular.










Əlbəttə ki, Prezident Cənab İlham Əliyevin bu sahədə ardıcıl, qətiyyətli, məqsədyönlü və prinsipial siyasət aparması, deməyə əsas verir ki, Azərbaycan diasporu güclənib, doğma Vətənin taleyüklü problemlərinin həllində yaxından iştirak edir, dünyada birlik, həmrəylik nümayiş etdirir.

***Nəzakət ƏLƏDDİNQIZI***

t
d